# Torpağı Vətən, Vətəni bütöv edənlər






# ŞƏHİD ADI müqəddəsdir

Qəhrəmanımız Mehman Musa oğlu Yusifov 1979-cu il 18 iyulda Tovuzun Bayramlı kəndində doğulub boya-başa çatmışdır. Ailənin altıncı övladı olan Mehmanın 3 qardaşı və 4 bacısı var idi. 1985-ci ildə Tovuz rayon Elşad Orucov adına Bayramlı kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1996-cı ildə 11-ci sinfi bitirmişdir. 1998-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Mehman Yusifov 2000-ci ildə ikiillik xidmətini başa vuraraq tərxis olunmuşdur. Daha sonra 2002-ci ildə yenidən Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qayıtmışdır.

Mehman Yusifov ailənin 6-cı övladı olmasına baxmayaraq, hətta özündən böyüklərə xüsusi diqqətlə yanaşırdı. Özündən başqa 7 qardaş - bacısı olan Mehman onların hamısına eyni diqqət göstərirdi. Mehman Yusifov yaşasaydı, bu ilin 18 iyununda 42 yaşı tamam olacaqdı. Böyük ailənin üzvü olan Mehman uşaqlıqdan əziyyətə, zəhmətə alışmış, zirəkliyi, qoçaqlığı ilə tay-tuşlarından fərqlənirdi. Gördüyü işlərinə həmişə məsuliyyətlə yanaşmışdır. Azərbaycan Silahlı Qüvvələrinə qoşulduqdan sonra Mehman Yusifov Sumqayıt şəhərində yaşamışdır.

Mehman Yusifov 2002-ci ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində gizirlik hazırlığı kursuna daxil olmuşdur. 4 saylı hərbi hissədə təcrübə keçib. 18 illik xidməti ərzində hərbi biliklərə yiyələnir, təlimlərdə iştirak edirdi.

O, 2016-cı ildə tariximizin şanlı səhifəsi olan Aprel döyüşlərində iştirak etmiş, Lələtəpə yüksəkliyinin alınmasında şücaət göstərmişdir. Nümunəvi xidmətlərinə görə dövlət tərəfindən "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "III dərəcəli" , "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" II dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan ordusunun 100 illiyi" yubiley medalları ilə təltif olunmuşdur.

Vətən müharibəsi başlandığı ilk gündən gizir Mehman Yusifov erməni cəlladlarına qarşı gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Onun son döyüş əməliyyatı Cəbrayıl-Füzuli istiqamətində olub. Ağır döyüş gedirdi. Əsgər yoldaşlarının bir neçəsi şəhid olur. 7 qəhrəman övladımız özlərindən sayca qat-qat çox olan mənfur düşmənlə vuruşur. Mehman minalanmış əraziləri çox çətinliklə keçsə də, silahını yerə qoymur. Son gülləsinə qədər döyüşür və oktyabrın 5-də ən ali zirvəyə, şəhidlik zirvəsinə ucalır.

Baş gizir Yusifovu doğulduğu Bayramlı kəndində böyük izdihamla torpağa tapşırdılar. Prezidentin Sərəncamına əsasən qəhrəmanımız "Qarabağ" və "Zəfər" ordenləri, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Atası Yusifov Musa Qasım oğlu 2012-ci ildə vəfat etmişdir. Anası Yusifova Gülsüm Vəli qızı ali təhsillidir, təqaüdçüdür. Hazırda Tovuz rayonunun Bayramlı kəndində yaşayır, işləmir.

Mehman Günel Yusifova ilə ailə həyatı qurmuşdur. Üç övladı var. Yusifzadə Məhəmməd 01.01.2010-cu ildə anadan olmuşdur. Həzi Aslanov adına 22 №-li tam ota məktəbin 4-cü sinif şagirdidir. Yusifzadə Fatimə 14.09.2011-ci ildə anadan olmuşdur. Həzi Aslanov adına 22 №-li orta məktəbin 3-cü sinfində oxuyur. Yusifzadə Süleyman 24.04.2018-ci ildə anadan olub.

Övladları atalarını çox sevirlər. Atalarının necə bir qəhrəman olduğu haqqında eşitdikləri, dostlarının danışdıqları Yusifovun övladlarını həm sevindirir, həm də kədərləndirir. Sevindirir ona görə ki, elə qəhrəman bir ataları var. Kədərlənirlər ona görə ki, bunları atalarından eşidə bilmədilər. Övladları ataları ilə fəxr edir və onun həmişə yaşadığını və yaşayacağına inanırlar. Dillərindəki şüar belədir: "Şəhidlər ölməz, Vətən bölünməz".

Artıq qeyd etdiyimiz kimi, ailəsinə bağlı olan Mehman bir qız, iki oğul atası idi. Onlara daim Vətən sevgisini aşılayırdı. Övladları atalarının necə bir qəhrəman olduğundan qürur duyurlar. Onlar da hərbçi olub, Vətənimizə, xalqımıza ataları kimi xidmət etmək, general olmaq arzusundadırlar.

Şəhid adı müqəddəsdir. Şirin canlarını Vətən uğrunda fəda edən oğullar babalarımızdan bizə əmanət olan bu torpağı göz bəbəyi kimi qorudular. Ərazi bütövlüyümüzə görə borclu olduğumuz şəhidləri yad etmək, bu qəhrəmanlıq tarixini gələcək nəsillərə tanıtdırmaq isə hamımızın borcudur.

**Məşdi ZEYNALOV,**
**Sumqayıt Şəhər Təhsil Şöbəsi Veteranlar təşkilatının sədri, qabaqcıl maarif işçisi.**